

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 73 (23.715)

*23 aprel 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


*Rəsmi xronika*

Aprelin 22-də Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən, təxminən, 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura “Qılınc” palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, “Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına və birinci xanıma kompleks barədə məlumat verib. Sonra dövlətimizin başçısı Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva vulkanların yerləşdiyi ərazini gəziblər.



## Şahbuz rayonunda yeni torpaqlar əkin dövriyyəsinə qatılıb, üç kəndin elektrik sistemi yenilənib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Bizim hələ ki, dövriyyədə olmayan böyük torpaq sahələrimiz vardır. Orada meliorativ tədbirlər, infrastruktur layihələri həyata keçirilməlidir ki, biz on minlərlə hektar yeni torpaqları dövriyyəyə buraxaq”.***

Naxçıvan Muxtar Respublikasında meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması aqrar sahənin inkişafına mühüm töhfə verir. Hər il bu istiqamətdə silsilə tədbirlər görülür, mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları tikilir, uzun illər əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılır. Həyata keçirilən bu tədbirlər bol məhsul istehsalı ilə yanaşı, həm də əhalinin məşğulluğunun təmin olunmasına hesablanıb.

Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyası tikilmiş, Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemləri yenilənmişdir.

## Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik təsərrüfatı yenidən qurulub

Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemlərində görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat vermişdir ki, Külüs, Keçili, Şahbuzkənd kəndlərini və yeni tikilən nasos stansiyasını dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə 12,2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Bu məqsədlə 35/10 kilovatlıq “Şahbuz” yarımstansiyasında lazımi genişləndirmə işləri aparılmış, Külüs kəndi ərazisində 2500 KVA gücündə 35/10 kilovoltluq və nasos stansiyasının yaxınlığında 1600 KVA gücündə 10/6 kilovoltluq transformator yarımstansiyası quraşdırılmışdır.

Bildirilmişdir ki, elektrik xəttinin çəkilişi üçün 84 ədəd 35 kilovoltluq qalvanik metal dayaq, 36,6 kilometr uzunluğunda, 43,5 ton “Piogen” markalı polad-alüminium məftil, 1700 metr mühafizə trosu çəkilmişdir. Həmçinin 1 ədəd 63 KVA gücündə 10/0,4 kilovoltluq xüsusi sərfiyyat transformatoru, 35, 10 və 6 kilovoltluq kommutasiya açarları quraşdırılmışdır.

Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik təsərrüfatlarının yenidən qurulması yaşayış məntəqələrində elektrik enerjisinin daha keyfiyyətlə ötürülməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yarımstansiyanın qurulmasında əməyi olanlara təşəkkür edərək demişdir: Bu ərazilərin elektrik enerjisi ilə təminatında həmişə problemlər olmuşdur. Ona görə də kəndlərin elektrik sistemlərinin yenidən qurulması və yeni xəttin çəkilməsinə qərar verildi. Yeni elektrik xətti həm 3 kəndin elektrik enerjisi ilə təminatını yaxşılaşdırdı, həm də uzun illər bu ərazidə əkilməyən 340 hektar torpağın su təminatını həyata keçirməyə imkan verdi.

“Vaxtilə torpaq sürüşməsi zamanı Keçili kəndindən köçənlər üçün evlər tikiləndə qaynaq aparatını işlətmək üçün elektrik enerjisinin gücü çatmırdı”, – deyən Ali Məclisin Sədri artıq bu gün həmin problemlərin aradan qaldırıldığını, müasir xətlərin qurulub istifadəyə verildiyini, elektrik təminatının yaxşılaşdırılmasının isə burada insanların rahat yaşayışına xidmət etdiyini bildirmişdir.







## Külüsdə yeni nasos stansiyası istifadəyə verilib

Aprelin 22-də Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat verərək demişdir ki, yeni nasos stansiyası Şahbuzçaydan qidalanır və suyu 510 metr yüksəklikdə yerləşən sahəyə vurur. Nasos stansiyasında su sərfi saatda 300 kubmetr olan nasos və gücü 800 kilovat elektrik mühərrikindən ibarət nasos stansiyası tikilərək vakuum sistemi ilə təmin olunmuşdur. Suyun sahəyə verilməsi üçün 1850 metr təzyiqli boru xətti bərpa olunmuş, 290 metr yeni xətt çəkilmişdir. 2140 metr boru xətti üzərində 64 bar təzyiqə davam gətirən 4 əks-klapan, 1 tənzimləyici siyirtmə quraşdırılmış, boru xəttinin dayanıqlılığını artırmaq üçün 18 beton anker dayaq tikilmiş, boru xəttinin sonunda 2 hidrant, 2 paylayıcı hovuz quraşdırılmışdır.

*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri demişdir: 40 il əvvəl bu nasos stansiyasının qurulmasına cəhd göstərilmiş, lakin iş başa çatdırılmamışdır. Çünki buraya çəkilən elektrik xəttinin gücü nəzərə alınmadığından nasos stansiyasını işlətmək mümkün olmamışdır. Yeni elektrik xəttinin çəkilməsi, yarımstansiyanın qurulmasından sonra artıq bu nasos stansiyasının işləməsi reallaşmış və bu gün istifadəyə verilir. Stansiya vasitəsilə 3 kəndin – Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektara yaxın torpaq sahəsi suvarılan torpaqlar sırasına daxil olacaqdır. Şahbuz rayonunda elə bir yer yoxdur ki, orada 340 hektar suvarılan torpaq sahəsi bir yerdə olsun. Ona görə bu nasosun əhəmiyyəti çox böyükdür. 340 hektar dəmyə torpaq suvarılan torpaqlara çevrilir ki, bununla məhsuldarlıq xeyli artacaqdır.

Ali Məclisin Sədri nasos stansiyasının qurulmasında əməyi olanlara təşəkkür etmiş və stansiyanı işə salmışdır.



## Əkin dövriyyəsinə qatılan yeni torpaqlar bol məhsula təminatdır



Həmin gün Ali Məclisin Sədri əkin dövriyyəsinə qatılmış 340 hektar torpaq sahəsinə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə məlumat vermişdir ki, sahəyə suyun paylanması üçün 5200 metr su arxı çəkilmiş və ərazi daşdan təmizlənmişdir. Əkin dövriyyəsinə daxil edilən 340 hektar torpaq sahəsinin 211 hektarı bələdiyyə, 129 hektarı isə xüsusi mülkiyyətdə olan torpaq sahələridir. Bunun 288 hektarı Külüs, 37 hektarı Mahmudoba, 15 hektarı isə Nursu bələdiyyələrinə daxildir. Ərazi Mahmudoba bələdiyyəsindən 1850 metr hündürlükdən başlayaraq Külüs və Nursu bələdiyyələrinə doğru 2100 metr hündürlüyədək 6 kilometr boyunca davam edir. Bu ilin məhsulu üçün ötən ilin payızında 274 hektar sahədə arpa, buğda və xaşa əkilmişdir ki, onun 121 hektarı xüsusi, 153 hektarı bələdiyyə mülkiyyətində olan torpaqlardır. Həmçinin 45 hektar sahədə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti əkin aparmışdır.

Əkin dövriyyəsinə qatılan torpaq sahələrinə sakinlərin və kənd təsərrüfatı texnikalarının rahat gediş-gəlişinin təmin olunması məqsədilə 7,6 kilometrlik yeni yol çəkilmişdir.

Ali Məclisin Sədri yeni əkin dövriyyəsinə qatılacaq 340 hektar sahədə qurulacaq qapalı suvarma şəbəkəsinin layihəsinə baxmışdır. Məlumat verilmişdir ki, qapalı suvarma şəbəkəsinin qurulmasında 42 hidrant, 10 siyirtmə, 6 suboşaldıcı və 3 təzyiqqaldırıcıdan istifadə olunacaqdır. Diametri 250 və 200 millimetr olan boru xətlərindən istifadə olunmaqla, ümumilikdə, 10 min 596 metr xətt çəkiləcəkdir.

Sonra kənd sakinləri ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri təbrik edərək demişdir: Bu gün Şahbuz rayonunun həyatında əlamətdar gündür. Rayonun əkin dövriyyəsinə suvarılan 340 hektar torpaq sahəsi əlavə olunur. Bu ərazilər əkin üçün tam yararlı, məhsuldar torpaqlardır. Suvarılandan sonra burada məhsuldarlıq da artacaq və rayon muxtar respublikanın iqtisadiyyatına öz töhfəsini verəcəkdir. Ölkəmizin iqtisadi inkişafı, torpaq sahələrinin suvarılmasının dayanıqlılığının artırılması sahəsində görülən tədbirlər, qəbul olunan dövlət proqramlarına uyğun olaraq bu ərazinin də əkin dövriyyəsinə daxil olunması üçün plan hazırlandı və həyata keçirildi. İlk növbədə, 11 kilometrə yaxın yeni elektrik xətti çəkildi və 2 yarımstansiya yaradıldı. Daha sonra nasos stansiyasının qurulması ilə yeni torpaqlar əkin dövriyyəsinə qatıldı. Əraziyə gələn yolun da əkinçilər üçün vacibliyi nəzərə alınaraq buraya tam yararlı yol çəkildi.

Ali Məclisin Sədri demişdir: Qısa müddətdə burada böyük işlər görülüb. Bu işlərin görülməsi üçün muxtar respublikanın büdcəsindən 1 milyon manata yaxın vəsait sərf olunub ki, torpaq mülkiyyətçiləri, bələdiyyə torpaqlarını icarəyə götürənlər torpaqlardan səmərəli istifadə edə, bol məhsul götürə bilsinlər. Dövlət dəstəyi ilə güzəştli şərtlərlə gübrələr verilir, əkinçilərə hər hektara görə vəsaitlər ödənilir. Bu ildən taxılın hər kiloqramı dövlət tərəfindən 42 qəpiyə alınacaqdır. Ona görə də torpaqlardan səmərəli istifadə olunmalı, bol məhsul əldə edilməlidir. Bu da həm əkinçilərin öz həyat şəraitini yaxşılaşdırmağa, həm də ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verəcəkdir.

Külüs kənd sakini Vahid Sadiqov minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin yüksək diqqət və qayğısı sayəsində muxtar respublikanın hər bir rayonu kimi, Şahbuz rayonu da tamamilə abadlaşmışdır. Kəndimizdə yeni məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar tikilib, təbii qaz, elektrik enerjisi təminatı yaradılıb, yolumuz abadlaşdırılıb. İnsanların rahat yaşaması üçün hər şərait vardır. Ali Məclis Sədrinin Külüs kəndinə budəfəki səfəri xüsusilə fərqlənir. Ona görə ki sovet imperiyasının 70 ildə həyata keçirə bilmədiyi işlər qısa müddət



ərzində reallığa çevrilib. Artıq “Düz” massivində su var, yəni həyat var. Kəndimizdə yeni nasos stansiyası qurulub, buraya 12 kilometr məsafədən elektrik xətti çəkilib, geniş yol salınıb, ərazi daşdan təmizlənərək əkinə yararlı vəziyyətə gətirilib. Burada görülən işləri biz heç təsəvvürümüzə də gətirə bilməzdik. Əvvəllər bu düzə qalxmaq çox çətin idi. İndi isə istənilən texnika bura çox asanlıqla gəlib-gedə bilir. Mən bu ərazidə 2 hektar taxıl əkmişəm. Bu cür əkin sahələrinin artırılması bolluq deməkdir. Bolluq xoş güzərandır. Bizim üzərimizə düşən bir vəzifə var – əkib-becərmək, bolluq yaratmaq, gəlir əldə etmək”.

Ali Məclisin Sədri ərazidə qapalı suvarma şəbəkəsinin qurulmasına başlanılması, əkin zamanı məhsuldar və yerli şəraitə uyğunlaşdırılmış toxum sortlarından istifadə edilməsi, torpaq mülkiyyətçilərinin maarifləndirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

* * *

Nasos stansiyalarının tikilməsi üçün, ilk növbədə, dayanıqlı və keyfiyyətli elektrik enerjisi təminatı vacib şərtdir. Külüs kəndində yeni nasos stansiyasının tikilməsi layihəsi 40 il bundan əvvəl, hələ Sovetlər Birliyi dövründə bu nəzərdə tutulmuşdu. Lakin həmin dövrdə bu ərazidə enerji təsərrüfatının normalara uyğun olmaması layihənin icrasına imkan verməmişdir. Müstəqillik illərində muxtar respublikada enerji təhlükəsizliyi öncül istiqamət kimi götürülmüş, yeni elektrik stansiyaları qurulmuş, bütün yaşayış məntəqələrində, xüsusilə kəndlərdə elektrik təsərrüfatı sistemləri yenilənmiş, yeni və dayanıqlı elektrik verilişi xətləri çəkilmiş, transformatorlar qurulmuş, yarımstansiyalar müasirləşdirilmiş, enerjinin tələbata uyğun verilməsinə nail olunmuşdur. Məhz bu işlərin davamı olaraq Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik sistemlərinin yenilənməsi, “Şahbuz” yarımstansiyasının gücünün artırılması nasos stansiyasının tikintisinə imkan vermiş, nəticədə, yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Yeni torpaq sahələrinin əkilməsi isə həm muxtar respublikanın ərzaq təhlükəsizliyinə, həm də sakinlərin rifahına töhfə verəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublika yazıçıları ilə şagirdlərin görüşü olub

***2018-2019-cu tədris ilindən başlayaraq aprel ayında muxtar respublikanın ümumtəhsil məktəblərində keçirilən “Mütaliə aylığı” çərçivəsində dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən muxtar respublika yazıçıları ilə şagirdlərin görüşü təşkil olunub.***

Tədbirdə çıxış edən Təhsil naziri Rəhman Məmmədov bildirib ki, muxtar respublikamızda kitabxana şəbəkələrinin, kitab fondunun zənginləşdirilməsi diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, məktəb kitabxanalarının maddi bazası yaxşılaşdırılıb, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyat ümumtəhsil məktəblərinə verilib.

Qeyd edilib ki, artıq üçüncü ildir ki, Təhsil Nazirliyi tərəfindən şagirdlərin formalaşmasında, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mütaliənin rolu nəzərə alınaraq aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində “Mütaliə aylığı” elan edilir. Muxtar respublikanın yazıçıları ilə görüş də “Mütaliə aylığı” çərçivəsində keçirilən silsilə



tədbirlərin davamıdır. Təhsil müəssisələrində yazıçı və şairlərlə görüşlərin, onların əsərlərinin müzakirələrinin keçirilməsi şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılmasında, onlarda yaradıcılığa marağın artırılmasında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Əliyev çıxış edərək muxtar respublikamızda elmə, ədəbiyyata verilən dəyərdən danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın şair və yazıçılarının əsərlərinin nəşr olunmasına böyük dəstək göstərir. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 10-a yaxını gənc olmaqla, 70 üzvü vardır ki, onlardan da bir neçəsi fəxri ada və Prezident mükafatına layiq görülüb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvləri – Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, şair-dramaturq Həsənəli Eyvazlı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, filologiya üzrə fəlsəfə doktoru, şair, ədəbiyyatşünas Xanəli Kərimli, şair-publisist Muxtar Qasımzadə, şair Zeyqəm Vüqar, filologiya üzrə fəlsəfə doktoru, şair Elxan Yurdoğlu və “Nuh yurdu” qəzetinin redaktoru, şair Qafar Qərib muxtar respublikada yazıçı və şairlərə göstərilən dövlət qayğısından danışıblar, öz əsərlərindən Naxçıvanın dünəni və bu günü ilə bağlı seçmələri təqdim ediblər.

Yaradıcı məktəbli anaya, Vətənə, torpağa bağlılıq hissləri ilə şeirlər yazan Şərur rayon Aralıq kənd tam orta məktəbinin VIII sinif şagirdi Sabrina Mədətova isə yaxşı təhsil alması üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Tədbirin sonunda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvləri tədbirdə iştirak edən şagirdlərə kitablarını hədiyyə ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür

# Kitablar nəsillərin bir-birinə vəsiyyətidir



***1995-ci il noyabrın 15-də YUNESKO Parisdə keçirilən 28-ci sessiyasında aprel ayının 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir. Ölkəmizdə 1997-ci ildən etibarən hər il aprel ayının 23-ü "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü" kimi qeyd olunur. Azərbaycan həm də 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvüdür.***

Bu günün ölkəmizdə qeyd olunmasında əsas məqsəd kitabların insan həyatındakı önəmini, müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanmasındakı rolunu göstərmək, eləcə də davamlı iqtisadi inkişaf və informasiya cəmiyyətinin formalaşması üçün zəngin mütaliə ilə bilik əldə etməyin əhəmiyyətini diqqətə çatdırmaq, əqli mülkiyyətin yaradıcılarına olan ehtiramı nümayiş etdirmək, həmçinin diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub saxlanmasına yönəltməkdir. Ümumdünya Kitab və Müəllif Hüquqları Günü insanları, xüsusən gənc nəsli kitab oxumağa, bəşəriyyətin sosial və mədəni tərəqqisinə xidmət edən şəxslərin əvəzedilməz əməyinə hörmət edilməsinə çağırış kimi də dəyərləndirilir.

***"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mədəni-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq",*** – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin, milli-mənəvi dəyərlərimizin, o cümlədən kitab nəşri və müəllifik hüquqlarının qorunması sahəsində ardıcıl tədbirlər görmüşdür. Ulu öndərin qayğısı ilə Azərbaycanda mətbəə və nəşriyyatlar yenidən qurulmuş, kitab nəşri ilə əlaqədar nəşriyyatların maddi-texniki bazası yaxşılaşmış, yaradıcı insanlara qayğı və diqqət artırılmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə ümummilli liderin rəhbərliyi ilə kitab nəşri və müəlliflik hüququ sahəsində zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1998-ci ildə "Kitabxana işi haqqında", 2000-ci ildə "Nəşriyyat işi haqqında", 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi bu sahənin inkişafına öz təsirini göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları, eləcə də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 6 sentyabr tarixli Fərmanı müəllif hüquqları sahəsində uğurlu və sistemli tədbirlərin həyata keçirilməsinə səbəb olmuşdur. Bu gün xalqımızın tarixi, mədəniyyəti, folkloru, ədəbiyyatı, musiqisi, muğamları, yallıları, memarlığı, milli mətbəxi, geyimləri, mədəni irsi haqqında bir-birindən maraqlı kitablar nəşr olunur, məqsədyönlü tədbirlər həyata keçirilir. Xalqımızın min illərboyu yaratdığı zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Ötən il YUNESKO-nun Təcili Qoruma Siyahısına salınmış "Tənzərə" və "Köçəri" yallıları bu qədim və nadir sənətin də xalqımıza məxsusluğunun bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından böyük nailiyyətdir.





Naxçıvan Muxtar Respublikasında da kitab nəşri və müəllif hüquqlarının qorunmasına ciddi diqqət yetirilir, bu sahədə görülən işlərin əhatə dairəsi getdikcə genişlənir. ***"Kitabxanaya və kitablara olan diqqət hər bir ölkənin inkişaf və tərəqqisində başlıca şərtdir",*** – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə şərait yaratmışdır. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurularaq elektron kitabxana sistemi istifadəyə verilmişdir.





Qədim diyarımızda təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanaların istifadəyə verilməsi bunun göstəricisidir. Muxtar respublikanın paytaxtında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmiş, müvafiq kateqoriyadan olan insanların mütaliəsi üçün lazımi şərait yaradılmışdır.

Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır. Ötən il muxtar respublikanın mədəniyyət ocaqlarına 2 minə yaxın kitab və çap məhsulu daxil olmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağının artmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan xanlığı", "Naxçıvan tarixi atlası", "Naxçıvan folkloru", "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvan tikmələri", "Uşaqlar və Günəş", "Naxçıvan mətbəxi", "Naxçıvan-Şərur el yallıları", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları", "Naxçıvan tarixi" çoxcildliyi, "Gülüstan türbəsi", "Əlincəqala", "Qarabağlar türbəsi", "Naxçıvan muzeyləri", "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018", "Nemətullah Naxçıvani: taleyi və sənəti", "Pedaqoji fikir tarixindən", "Naxçıvanın xüsusi mühafizə olunan təbiət əraziləri", "Yallılar dünəndən bu günə", "Ərtoğrol Cavid – 100. Natamam ömrün 100 illik təntənəsi", "Məmməd Məmmədov – 100" və başqa kitablar tariximizin və milli dəyərlərimizin, eləcə də ədəbi şəxsiyyətlərimizin həyat və yaradıcılığının öyrənilməsində əvəzsiz rola malik dəyərli mənbələrdir.

Uşaq və gənclərdə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq edilməsi təkcə qədim diyarımızda deyil, ölkəmizdə təhsil işçiləri, tanınmış ziyalılar tərəfindən də rəğbətlə qarşılanmışdır. Siyahıda adları qeyd edilən kitablar yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə, tarixi keçmişə, milli kökə bağlılığına və siyasi dünyagörüşünün möhkəmləndirilməsinə, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsinə xidmət edir.

Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

*Nəsillərin, sanki bir-birinə vəsiyyəti olan kitablar bəşəriyyətin mənəvi qidası kimi bütün zamanlarda gərəkli olacaq, tərəqqi və intibaha xidmət edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

## Test imtahanları başa çatıb

Cari il yanvarın 14-dən başlayaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən təhsilverənlərin sertifikatlaşdırılması üçün test imtahanlarının keçirilməsinə start verilmişdi.

Qeyd edək ki, test imtahanlarında iştirak etmək üçün 5412 müəllim qeydiyyatdan keçib, onlardan 5274-ü sertifikasiya imtahanlarında iştirak edib, 3304 təhsilverən keçid balını toplayıb.

Sertifikasiya imtahanlarının test mərhələsində ən yüksək nəticələri alman dili, fransız dili, coğrafiya, ingilis dili və təsviri incəsənət müəllimləri, ən aşağı nəticələri isə fiziki tərbiyə və ibtidai sinif müəllimliyi ixtisasları göstərib.

Ayrı-ayrı fənlər üzrə statistikaya nəzər salsaq, riyaziyyat müəllimliyi üzrə 467, ibtidai sinif müəllimliyi üzrə 671, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi üzrə 420, tarix müəllimliyi üzrə 222, ingilis dili müəllimliyi üzrə 266, fiziki tərbiyə müəllimliyi üzrə 97, biologiya müəllimliyi üzrə 163, texnologiya müəllimliyi üzrə 129, fizika müəllimliyi üzrə 185, kimya müəllimliyi üzrə 133, coğrafiya müəllimliyi üzrə 110, rus dili müəllimliyi üzrə 101, informatika müəllimliyi üzrə 95, gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi üzrə 100, musiqi müəllimliyi üzrə 42, fransız dili müəllimliyi üzrə 46, təsviri incəsənət müəllimliyi üzrə 45, alman dili müəllimliyi üzrə 12 nəfər imtahanlarda uğur qazanıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

## Məşğələ keçirilib



Naxçıvan Qarnizonu Qoşunlarında hərbi hissə komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələsi keçirilib. Məşğələ komandirlərin və qərargah zabitlərinin yaranmış mürəkkəb şəraitdə döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirmək bacarıqlarının təkmilləşdirilməsi məqsədilə təşkil edilib.

Məşğələlər səhra şəraitində təşkil olunmuş təlim yerlərində "Artilleriya divizionunun atış və atəşin idarə olunması", "Motoatıcı briqadanın ikinci eşelon taborunun müdafiə rayonunu tutması" və "Komanda məntəqəsində döyüş işinin təşkili qaydası" mövzularında keçirilib, zirehli tank texnikalarından praktik atışları nümayiş olunub.

Sonda zabitlərin rəhbəredici sənədlərdən və hərbi topoqrafiyadan nəzəri bilikləri yoxlanılıb. Birləşmənin Təlim-Tədris Mərkəzində keçirilən yekun tədbirində bildirilib ki, məqbullar götürülən zaman hərbi hissə komandirləri və müavinləri komandir hazırlığı üzrə yüksək nəticə göstəriblər.

**Kənan CƏLİLOV**

## Sədərəkdə yaşı 30-dan yuxarı olan işçi qrupları COVID-19-a qarşı vaksinasiyaya cəlb olunub

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq aprelin 20-dən Sədərək rayonunda yaşı 30-dan yuxarı olan işçi qruplarının vaksinasiyası prosesinə başlanılıb. Əvvəlcə ümumtəhsil müəssisələrində çalışan 30 və yuxarı yaşlı pedaqoji və texniki heyətin 160 nəfəri vaksinasiya olunub.

Aprelin 21-dən isə yaşı 30-dan yuxarı olan işçi qruplarının vaksinasiyasına start verilib. İlk olaraq Sədərək Rayon İcra Hakimiyyəti və rayonun idarə və müəssisələrinin işçi qruplarının müvafiq yaş qrupundan olan 300 işçisi təhlükəsizliyinə və effektivliyinə görə seçilən "Sinovac" vaksininə cəlb edilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi heyət tərəfindən həyata keçirilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb. Peyvəndləmə həftəboyu davam etdiriləcək. 2-ci doza vaksinasiya isə ilk peyvəndən 28 gün sonra həyata keçiriləcək.

Qeyd edək ki, pandemiyanın normal tədris mühitinin davam etdirilməsinə mane olmasının bundan sonra da qarşısını almaq üçün pedaqoji və texniki heyətin, eləcə də digər işçi qruplarının vaksinasiya prosesində iştirakı zəruridir.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Naxçıvan dünən

## Şagird dəftər istəyir

Bir aydan artıqdır ki, ümumtəhsil məktəblərində dərslər başlayıb. Bəzi dərsliklərin çatışmasına baxmayaraq, uşaqlar bir-birinə kömək edir, necə deyərlər, yoldaşı darda qoymurlar. Amma bəzən kiçik saydığımız hər hansı bir problem kiminsə narazılığına, narahatlığına səbəb olur. Həmin problem vaxtilə dərs ləvazimatları içərisində ən ucuz satılan dəftərdir. İndi bu 12 vərəqli dəftər qiymət sarıdan çox ləvazimatları arxada qoyub. Hazırda xırda alverçilərin əlində olan ən keyfiyyətsiz dəftəri 300-350 manata almaq olur. İnsafsız alverçilər ehtiyacın daha çox olduğunu gördükcə qiymətləri günü-gündən qaldırırlar. Gəlin bir az fikirləşək. Belə bir şəraitdə məktəbə 3-4 uşaq yollayan və az məvaciblə birtəhər dolanan valideyn nə etməlidir? Axı dəftər kitab deyil ki, ildə bir dəfə alasan. Hər bir məktəbli ayda heç olmasa 4-5 dəftər işlədir. Bu da indiki bazar qiyməti ilə 1500-1600 manat edir.

Düzdür, hamımız başa düşürük ki, ümumi vəziyyət çətindir, hər şey bahadır. Amma üstü rəngli dəftərlərə həsrətlə baxan uşaqları görəndə adamın ürəyi ağrıyır. Axı uşaq oxumaq, yazmaq istəyir. Olmazmı ki, dəftər satışı hər bir məktəbdə şagirdlərin sayına görə təşkil edilsin? Bizə belə gəlir ki, bu məsələ kiçik də olsa, vacib məsələlərdən biridir. Axı şagirdi dəftərsiz təsəvvür etmək olmaz.

**“Şərq qapısı” qəzeti**
***8 oktyabr 1994-cü il***

***27 il əvvəl dərc olunan “Şagird dəftər istəyir” adlı çox kiçik olan məqalədə yazılan hər bir söz, cümlə Naxçıvandakı təhsilin ozamankı vəziyyətini açıq-aydın göstərir. Naxçıvan məktəblisinin 12 vərəqli dəftərə həsrət qaldığını indiki məktəblilərə desək, bəlkə də, inanmazlar. 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi vəziyyəti haqqındakı arxiv materiallarına nəzər yetirmək kifayətdir ki, o zaman məktəblərin, idman müəssisələrinin yararsız halda olduğunu, şagirdlərin dərsliklərinin çatışmamasını görək. Ən ağır vəziyyətlərdən biri isə gənclərin pis vərdişlərə yiyələnməsi, onlar tərəfindən cinayət hadisələrinin törədilməsi və başqa bu cür hallar gələcəyimizin böyük təhlükədə olduğunu göstərirdi. Elə olurdu ki, uşaqlar günlərlə məktəbə getmirdilər. Naxçıvan təhsilinin dünəni ilə bu gününün müqayisəsi, təhlili, təbii ki, bir məqaləyə sığmaz.***

# və bu gün

## Xoşbəxtdir Naxçıvanın bugünkü məktəblisi...

1996-cı ildən “Təhsildə geriləməyə qətiyyən yol vermək olmaz” prinsipi əsas götürülərək muxtar respublikanın bütün yaşayış məntəqələrində məktəblərin, idman müəssisələrinin tikilməyə başlanılması ilə Naxçıvanda bu sahələrin inkişafının əsası qoyuldu. Statistikaya nəzər yetirək: Son 20 ildə 150-dən çox məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Hazırda Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə, Şərur rayonunun Çərçiboğan, Dərvişlər, Babək rayonunun Sirab, Araz, Ordubad rayonunun Əndəmic, Vələver, Pəzməri və Dırnıs məktəblərində tikinti-quruculuq işləri aparılır. Bütün bunlar muxtar respublika idarəçiliyində gənclərin təhsilinə nə qədər önəm verildiyinin göstəricisidir və həyata keçirilən tədbirlər onların yaxşı təhsil almalarına hesablanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışlarında vurğuladığı bir məqam var: ***“Bizim bugünkü qurub-yaratmaq işimizin önündə məktəb tikintisi durur. Ola bilər ki, muxtar respublikanın hansısa bir tikinti sahəsində geriləməmiz var. Lakin məktəb tikintisi sahəsində heç bir geriləməyə yol vermək olmaz. Bu gün belə məktəblərdə təhsil alan gənclər Azərbaycanın gələcəyinin təminatçısıdırlar”.*** Bəli, Naxçıvanda gəncliyə Azərbaycanın təminatçısı kimi yanaşılır və bu sahədə mühüm tədbirlər həyata keçirilir. Həmin tədbirlərin davamı kimi aprelin 9-da müasir şərait yaradılmış 612 şagird yerlik Ordubad şəhər 1 nömrəli tam orta məktəb binası istifadəyə verildi. Bu, bütün Ordubad ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılandı. Məktəbin məzunlarının sevincini sosial şəbəkələrdən də izlədik. Onlardan birinin





fikirlərini oxucularla paylaşmaq istəyirəm. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi işlər üzrə direktor müavini Yeganə Rüstəmova: – Gündən-günə gözəlləşən Ordubadımla fəxr edirəm. Qədim abidələrlə zəngin Ordubadda tarixi abidələrin bərpası, yeni yolların salınması, inzibati binaların, xəstəxanaların, məktəblərin tikilməsi adamın ürəyini dağa döndərir. Ordubada hər getdiyimdə orada olan yeniliklər məni heyran edir. Bu yaxınlarda mənim doğma məktəbim – Ordubad şəhər 1 nömrəli tam orta məktəb binası yenidən qurularaq istifadəyə verildi. Bu xəbər məni çox sevindirdi. Məktəbin yanından keçərkən həmişə onun yenidən bərpa ediləcəyini ümid edirdim. Ümidlərim puç olmadı. Ali Məclis Sədrinin göstərişi sayəsində bizim köhnə məktəbimiz yeni, müasirtipli, bütün tələblərə cavab verən 612 şagird yerlik məktəblə əvəz edildi. Məktəb uşaqların təlim və tərbiyəsində, elmlərin sirlərinə yiyələnmələrində böyük rol oynayır. Mən məktəbimizin açılışını eşidəndə sevincimin həddi-hüdudu olmadı. Dərhal Ordubada, qardaşımgilə zəng vurdum. Onun iki oğlu həmin məktəbdə oxuyur. Uşaqlar elə sevinirdilər ki... Qardaşımın balaca oğlu dedi ki, bibi, mən dərslərimi daha yaxşı oxuyacağam ki, instituta qəbul olum və gəlib öz məktəbimizdə müəllim işləyim. Uşaqlar məktəbdə olan yenilikləri mənə sevinclə danışdılar. Bildirdilər ki, sanki nağıllar aləminə düşmüşük, gördüklərimizə inana bilmirik. Onları daha çox cəlb edən maraqlı sinif otaqları, idman, kompüter zalları, kimya, biologiya, fizika laboratoriyaları və kitabxanası olmuşdur. Mən də onlara məsləhət verərək dedim ki, məktəbdə oxuyarkən bizim üçün belə gözəl şərait yox idi. İndi siz bunların qədrini bilin, qoruyun ki, sizdən sonra gələn uşaqlar da təmiz, səliqəli sinif otaqlarında dərs keçə bilsinlər.

Belə fikirlər yüzlərlədir və pandemiyanın olduğu bir dövrdə fasiləsiz təhsilin təmin olunması və üstəgəl də elə bir dövrdə təhsil sahəsində quruculuq işlərinin davam etdirilməsi muxtar respublika sakinləri tərəfindən böyük razılıq hissi ilə qarşılanıb. Ordubadda təhsil sahəsində baş verən bu yenilik haqqında bəhs edərkən yenidən dünənə qayıtmaq istəyirəm. Yaxın keçmiş... Keçən əsrin 90-cı illərinin əvvəllərində bu bölgədə təhsildəki acınacaqlı vəziyyət haqlı olaraq rayon sakinlərinin etirazına səbəb olurdu. Nüsnüs, Əylis, Sabirkənd, Dəstə və başqa kəndlərdə narazılıq artırdı. Ordubadlılar “Şərq qapısı” qəzetinə məktub yazaraq səslərinə səs verilməsini tələb edirdilər. Bəli, o zamanlar təhsilə göstərilən diqqət və qayğıdan danışmaq belə, olmazdı. Məhz ona görə o illərdə “Gələcəyimiz təhlükə altındadır”, “Təhsil qayğı istəyir”, “Ordubadda yeni “kəşf” və başqa yazılar mətbuat səhifələrində yer alırdı. Həmin yazılardan aydın olur ki, o illərdə muxtar respublikanın təhsili hansı vəziyyətdə idi. Həmin illərin məktəblisi adi bir şagird dəftərinə həsrət qalmışdı. Amma bu gün ordubadlı məktəbli XXI əsrin tələblərinə cavab verən müasir məktəb binasında təhsil alır. Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə tədrisdə yeni texnologiyalar tətbiq edilib. Hazırda ordubadlı gənclər üçün 400 yerlik futbol stadionu qurulur. Bunlar göstərir ki, muxtar respublikada gənclərin təkcə təhsili yox, idmanla məşğul olması, sağlam böyüməsi istiqamətində də həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Elə aprel ayının əvvəlində istifadəyə verilən Uzunoba Təlim-Məşq



İdman Kompleksi Naxçıvan gəncliyinə böyük töhfələrdən biridir və kompleksin qurulub istifadəyə verilməsi muxtar respublikada yenilikdir. Burada həm yay aylarında çimərlik idman növündən istifadə olunacaq, həm də ilin bütün fəsillərində idmanın müvafiq növləri ilə bağlı məşqlər keçiriləcəkdir. Onu da xüsusi qeyd etmək lazımdır ki, kompleksdəki stadionlar Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası, eləcə də Avropa Futbol Assosiasiyaları İttifaqının standartlarına tam cavab verir və beynəlxalq yarışlar üçün uyğundur. Təbii ki, idman təkcə hər hansı bir yarışda uğur qazanmaq deyil, həm də gələcək nəslin sağlamlığının qorunmasıdır. Bundan başqa, idman gəncləri təşəbbüskarlığa, əməksevərliyə, təəssübkeşliyə, səbrə, iradəli olmağa, dözümə öyrədir; insanda yalnız öz gücünə arxalanmaq, komanda yoldaşına yardım göstərmək, nəticə etibarilə, humanist olmaq və Vətəni sevmək kimi vacib keyfiyyətlər formalaşdırır. Uzunoba Təlim-Məşq İdman Kompleksinin açılış mərasimində Ali Məclis Sədrinin dediyi kimi: ***“Bu gün təhsilin inkişafı gənclərin sağlam böyüməsindən asılıdır. Əgər onlar sağlam həyat tərzi keçirirlərsə, deməli, yaxşı təhsil ala biləcək, ailələri, cəmiyyət və dövlət üçün yararlı vətəndaşa çevriləcəklər”.***

İllərdir ki, naxçıvanlılar belə tədbirlərin həyata keçirilməsini günün reallığı kimi qəbul ediblər. Amma nəzərə alsaq ki, bütün dünyada pandemiyanın olduğuna baxmayaraq, Naxçıvanda məktəblər ikinövbəli sistemlə davam edir. Sərt qış, xəstəlik dərsləri pozmur. Çünki əvvəlcədən görülmüş tədbirlər tədris prosesinin normal keçməsinə şərait yaradıb. Üstəgəl də yeni məktəb binaları tikilir, idman müəssisələri qurulur, bu istiqamətdə digər tədbirlər həyata keçirilir. Bu gün bu qədim diyarda elə bir valideyn tapa bilməzsən ki, övladının oxumasında maraqlı olmasın. Çünki artıq o görür ki, övladının yaxşı oxuması üçün geniş imkanlar var. Məhz buna görə Naxçıvan ailəsi, gəncliyi xoşbəxtdir. Bu gün Vətənin qurucusu və qoruyucusu sıralarında naxçıvanlı gənclərin öndə getməsi də təsadüfi deyil.

**Sara ƏZİMOVA**
***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü***

## *“Xalq yaradıcılığı günləri”nə start verilib*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 9 fevral tarixli Sərəncamından sonra muxtar respublikanın bütün bölgələrində və Naxçıvan şəhərində ənənəvi “Xalq yaradıcılığı günləri” keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 2021-ci il üçün iş planına əsasən bu ilin aprel-oktyabr aylarında keçirilməsi nəzərdə tutulan “Xalq yaradıcılığı günləri”ndə rayon (şəhər) Mədəniyyət şöbələrinin tabeliyindəki klub müəssisələri əməkdaşlarının, eləcə də mədəniyyət müəssisələrinin yaradıcı kollektivlərinin iştirakı ilə xalq sənəti və folklor nümunələrinin, milli rəqs və mahnı sənətimizin geniş şəkildə təbliği, böyüməkdə olan gənc nəslə aşılanması məqsədilə mövcud pandemiyanın doğurduğu sosial vəziyyət nəzərə alınaraq, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz və Naxçıvan Dövlət Film Fondu tərəfindən çəkilişlər aparılacaq.

Məlumat üçün bildirək ki, ilk olaraq Şərur rayonunda başlanan çəkilişlər, Ordubad, Kəngərli, Sədərək, Şahbuz, Babək rayonlarında və Naxçıvan şəhərində davam etdiriləcək. “Xalq yaradıcılığı günləri” ilə bağlı sonuncu çəkilişlər bu ilin oktyabr ayında Culfa rayonunda aparılacaq.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində bu təhsil ocaqlarının Vətən müharibəsində iştirak edən məzunları ilə görüşlər keçirilib.*

## Vətən müharibəsi iştirakçısı olan məzunlar ilə görüş

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu tələbələrinin hazırladığı tədbirdəki çıxışlarda vurğulanıb ki, Vətən müharibəsindəki qələbə xalqımızın şanlı tarixidir. Qeyd edilib ki, muxtar respublikada şəhidlərin xatirəsinə yüksək ehtiram, qazilərimizə göstərilən xüsusi dövlət qayğısı gənclərin bu istiqamətdə təşkil etdiyi tədbirlərin əsas başlanğıc meyarıdır. Qazilərimiz Nurlan Quliyev və Pənah Mahmudovun döyüş yolu haqqında slayd təqdim edilib, tələbələrdən Jalə Cəfərli və Təranə Zaidova çəkdikləri portretləri Vətən müharibəsi iştirakçılarına təqdim ediblər.

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə vurğulanıb ki, Vətən müharibəsində hərbçilərimizin göstərdikləri qəhrəmanlıqlar ölkəmizdə və muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir. Bu illər ərzində muxtar respublikada ordu quruculuğu mühüm məsələlər sırasında saxlanılıb.

Tədbirdə digər çıxışlardan sonra İkinci Qarabağ müharibəsində iştirak etmiş kollecin məzunlarına diplomlar təqdim olunub.

**✍ Aytac CƏFƏRLİ**

***İtmişdir***

Məmmədov Ramal Kamal oğlunun adına olan 020098202 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 339